## *MÜSTƏQİLLİK QAZANDIRDIN AZƏRBAYCAN ÖLKƏSİNƏ*

Tale gülür üzümüzə,
Açılır qol-qanadımız.
İndi dünya məclisində,
Çəkilir tez-tez adımız.

Azadlığa həsrət idik –
«Biriydik 15 əsirdən».
İmperiya buxovundan
Xilas etdin bu xalqı Sən.

Öz Himnimiz, Bayrağımız,
Öz Evimiz, Dilimiz var.
Indi bir çox ölkələrə
Örnək olan elimiz var.

Haqq qılıncdan iti olur –
Həqiqətdir dediklərim.
Yetmiş illik əsarətdə
Zəhər olub yediklərim.

Ən layiqli rəqib idin,
O meydanda «Baş Katibə» -
Öz xalqına nankor çıxan,
Özgəyə «sirdaş katibə».

Allahını danan «kəsin»,
Gec-tez cəzadır qisməti.
Gözümüzün önündədir,
Onun da son aqibəti.

Heydər Ata, dar günündə
Üz tutmuşdu Vətən Sənə -
Müstəqillik qazandırdın
Azərbaycan ölkəsinə.

***Valeh Mirzə***

***Azərbaycan dövlətçiliyinin qoşa qanadı. – B. : Təhsil, 2006. – S. 338-339.***